## Kompensasiya ödənişi zamanı əmanət faizlərinin hesablanması

Əmanətlər üzrə faizlər bankda sığorta hadisəsinin baş verdiyi günə qədər hesablanmış məbləğdə ödənilir, bu şərtlə ki, kompensasiya məbləği qorunan əmanətçilərə ödənilən maksimum məbləğdən çox olmasın.

## Sığorta hadisəsi baş verdikdə kompensasiyaların alınması üçün **Fonda müraciət**

Yazılı ərizə ilə müraciət zamanı ərizəyə əlavə olunmalıdır:

- əmanət (bank hesabı) müqaviləsi
- əmanət kitabçası (yaxud qanunvericiliyə uyğun olaraq əmanəti təsdiqləyən digər sənəd)
- şəxsiyyəti təsdiq edən sənəd
- əmanətçinin nümayəndəsi müraciət etdikdə onun notarial qaydada təsdiq olunmuş etibarnaməsi

***Mənbə:** "Əmanətlərin sığortalanması haqqında" Azərbaycan Respublikasının Qanunu*

## REGİONAL MƏRKƏZLƏR




**Bakı şəh., Babək prospekti 16**

**Qaynar xətt: (+994 12) 941**

**info@adif.az** **www.adif.az**

**Azerbaijan Deposit Insurance Fund**

**@adif_az**

**Əmanətlərin Sığortalanması Fondu**



# SİZİN ƏMANƏTİNİZ QORUNUR?

2021

## Əmanətlərin Sığortalanması Fondunun məqsədi

Bizim əsas məqsədimiz fiziki şəxslərin əmanətlərini qorumaq, sığorta hadisəsi baş verdikdə isə kompensasiya etməkdir. Bildirək ki, ölkəmizdə fəaliyyətdə olan bütün banklar Əmanətlərin Sığortalanması Fondunun üzvüdür.

## Sığortalanmış əmanət nədir?

Sığortalanmış əmanət qorunan əmanətçinin qorunan əmanətini Əmanətlərin Sığortalanması Fondu (Fond) tərəfindən kompensasiya ödənilən hissəsidir.

## Sığortalanmış əmanət əmanətçiyə hansı üstünlüyü verir?

Sığorta hadisəsi baş verdikdə (bankın müflis olması və s.) əmanətçinin 100.000 manatadək olan əmanətini tam şəkildə, bundan çox olan əmanət məbləğinin isə 100000 manat hissəsini kompensasiya şəklində daha tez, yəni əmanətçinin ərizəsi Fond tərəfindən qəbul edildiyi gündən 90 təqvim günü ərzində almaq hüququ verir.

## ƏMANƏTİN SIĞORTALANMASI PROSESİ

1. Fiziki şəxs əmanətçi etibar etdiyi bankı seçir
2. Əmanətin illik faiz dərəcəsinə uyğun olaraq qorunan olub-olmamasını müəyyən edir
3. Əmanət müqaviləsini rəsmiləşdirir.

**Əmanətin sığortalanması əmanətçi tərəfindən hər hansı ödəniş edilmədən həyata keçirilir.**

## Qorunan əmanət nədir?

Sığorta hadisəsi baş verdikdə Fond tərəfindən qorunan əmanətçiyə kompensasiya olunan əmanətidir. Bura fiziki şəxslərin sığortalanmış əmanətləri, cari hesablarında olan pul vəsaitləri, sahibkarlıq fəaliyyəti ilə əlaqədar açdığı bank hesablarındakı pul vəsaitləri və Notariusların depozit hesablarında olan pul vəsaitləri aiddir.

## Qorunan əmanətlərin illik faiz dərəcəsi

Hazırda qorunan əmanətlər üzrə illik faiz dərəcəsinin yuxarı həddi

**milli valyutada 12%**

**xarici valyutada 2,5%**

## Qorunmayan əmanət

“Əmanətlərin sığortalanması haqqında” Azərbaycan Respublikası Qanununun 2.1.2.2 - 2.1.2.8-ci maddələrində sadalanan əmanətlər qorunmayan əmanətlərdir. Qorunmayan əmanətlərə görə kompensasiya ödənilmir, tələblər müvafiq qaydada qeydə alınır vəödəniş növbəliliyi qaydasında icra olunur.

## KOMPENSASİYA MƏBLƏĞLƏRİ

| | |
|---|---|
| **Fiziki şəxsin qorunan əmanəti üzrə** | 100.000₼ |
| **Fiziki şəxsin sahibkarlıq fəaliyyəti üçün açdığı bank hesabı üzrə** | 20.000₼ |
| **Notariusların depozit hesablarında qalmış fiziki şəxslərə məxsus pul vəsaitləri** | tam məbləğ |

## Kompensasiyalar hansı valyutada ödənilir?

Milli valyutada olan əmanətlər üzrə kompensasiya manatla, xarici valyutada (yalnız ABŞ dolları və ya Avroda) olan əmanətlər üzrə isə əmanətlərin valyutasında ödənilir.

₼=₼ $=$ €=€

Digər valyutalarda olan əmanətlər - sığorta hadisəsi baş verən günə uyğun Mərkəzi Bankın rəsmi məzənnəsi ilə hesablanmış ABŞ dolları və ya avroda ödənilir.

100.000₼ + 100.000$ + 100.000€ + 150.000₼ *cari hesab*

**100.000₼**
*cəmi kompensasiya*

## Kompensasiyaların alınma prosesi

Kompensasiya almaq üçün əmanətçi yazılı ərizə ilə Fonda müraciət etməlidir. Ərizəyə əmanət müqaviləsi, əmanət kitabçası, yaxud qanunvericiliyə uyğun olaraq əmanəti təsdiqləyən digər sənədlər və onların surəti əlavə olunur, habelə əmanətçinin şəxsiyyətini təsdiq edən sənəd təqdim edilir. Kompensasiya almaq üçün əmanətçinin nümayəndəsi müraciət etdikdə o, əlavə olaraq notariat qaydasında təsdiq olunmuş etibarnaməni Fonda təqdim etməlidir.

Fond əmanətçilərin ərizələrini kompensasiya ödənişi haqqında bildirişin ilk dəfə dərc edildiyi gündən başlayaraq 1 il ərzində qəbul edir. Əmanətçinin müraciətini qeyri-mümkün etmiş halların mövcud olduğunu təsdiq edən sənədlər təqdim edildikdən bu müddət əmanətçinin ərizəsinə əsasən uzadıla bilər.